

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 35 (21.187)

20 fevral 2015-ci il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiymәti 20 qәpik

*Rəsmi xronika*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 19-da Amerika Birləşmiş Ştatlarının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Robert Sekutanın etimadnaməsini qəbul edib.

Səfir Robert Sekuta fəxri qarovul dəstəsinin qarşısından keçdi.

Robert Sekuta etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət etdi.

Görüşdə ölkələrimiz arasında ikitərəfli əlaqələrin müxtəlif sahələri əhatə etdiyi məmnunluqla qeyd olundu. Bu əlaqələrin regional əməkdaşlıq, təhlükəsizlik, terrorizmə qarşı mübarizə, enerji, nəqliyyat və digər sahələrdə daha da genişləndirilməsi üçün yaxşı imkanların olduğu bildirildi. Səfir Robert Sekutanın ölkəmizdəki diplomatik fəaliyyəti dövründə ikitərəfli münasibətlərimizin uğurlu inkişafının davam edəcəyinə əminlik ifadə olundu.

Söhbət zamanı Azərbaycan-ABŞ münasibətlərinin perspektivləri ilə bağlı məsələlər ətrafında geniş fikir mübadiləsi aparıldı.



## Miqrasiya Xidməti 2014-cü ili uğurla başa vurub



*Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətində ötən ilin yekunları və qarşıda duran vəzifələrlə əlaqədar keçirilən iclası xidmətin rəisi, III dərəcəli dövlət miqrasiya xidməti müşaviri Fazil Ələkbərov açaraq məruzə ilə çıxış edib.*

Bildirilib ki, muxtar respublika ərazisinə gələn əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin rahatlığının təmin edilməsi məqsədilə ötən ilin sentyabr ayının 20-dən etibarən sərhəd-buraxılış məntəqələrinin giriş istiqamətlərində Dövlət Miqrasiya Xidmətinin əməkdaşları fəaliyyət göstərməyə başlayıblar. Bu da əcnəbilərin, eləcə də onları qəbul edən şəxslərin uzaq məsafə qət etmədən və vaxt itkisi olmadan rahat şəkildə sərhəd-buraxılış məntəqələrində olduğu yer üzrə qeydiyyata alınmasına şərait yaradır. Ötən il ərzində Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin rəsmi internet səhifəsi hazırlanaraq istifadəyə verilib. Bəhs olunan dövrdə muxtar respublikanın müxtəlif rayon və kəndlərində miqrasiya sahəsində hüquqi maarifləndirmə tədbirləri keçirilib.

Xidmət rəisi qeyd edib ki, bu dövr ərzində muxtar respublika ərazisində fəaliyyət göstərən işəgötürənlərlə əmək miqrasiyası sahəsində hüquqi maarifləndirici görüşlər keçirilib. Bununla yanaşı, miqrasiya sahəsində hüquqi maarifləndirici videoçarxlar hazırlanaraq Naxçıvan televiziyasında və Naxçıvan şəhərinin müxtəlif ünvanlarında yerləşən monitorlarda mütəmadi olaraq nümayiş etdirilib və xidmətin rəsmi internet səhifəsində yerləşdirilib. Hesabat dövrü ərzində Dövlət Miqrasiya Xidməti tərəfindən miqrasiya sahəsində müvafiq qanunvericiliyi özündə əks etdirən elektron köşklər hazırlanaraq sərhəd-buraxılış məntəqələrinin ölkəyə giriş istiqamətində yerləşdirilib. 2014-cü il ərzində Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidməti tərəfindən qanunsuz əmək miqrasiyasının qarşısının alınması və iş icazələrinin qüvvədəolma qaydalarına nəzarət etmək məqsədilə muxtar respublika ərazisində fəaliyyət göstərən tikinti və emal sənayesi sahələrində mütəmadi olaraq yoxlamalar aparılıb. Həmçinin hesabat dövrü ərzində Dövlət Miqrasiya Xidmətinin əməkdaşları tərəfindən muxtar respublika ərazisində qanunsuz və qeydiyyatsız olan, qanunsuz yaşayan əcnəbi və vətəndaşlığı olmayan şəxslərin aşkar edilməsi istiqamətində mütəmadi tədbirlər həyata keçirilib. 2014-cü il ərzində muxtar respublika ərazisində müvafiq qaydalara əməl etmədən inzibati qanunvericiliyin tələblərini pozan 344 əcnəbi aşkarlanıb. Aşkarlanmış əcnəbilərdən 114-ü barəsində Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin müvafiq maddəsinə əsasən, cərimə-inzibati tənbeh növü tətbiq edilib, 208-i 48 saat müddətində, 22-si isə inzibati qaydada ölkə hüdudlarından kənara çıxarılıb. Ötən il əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında olduğu yer üzrə qeydiyyatı ilə bağlı xidmətə, ümumilikdə, 16295 müraciət daxil olub. Həmin müraciətlərdən 12998-i şəxsən, 1767-si mehmanxana modulu altsistemi, 1530-u isə xidmətin e-mail ünvanı vasitələri ilə olub.

"Hesabat dövründə əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə Azərbaycan Respublikasında müvəqqəti yaşamaq üçün icazənin verilməsi ilə bağlı xidmətə, ümumilikdə, 754, daimi yaşamaq üçün icazənin verilməsi ilə bağlı isə 8 müraciət daxil olub", – deyən Fazil Ələkbərov bildirib ki, il ərzində Azərbaycan Respublikası vətəndaşlığına mənsubiyyətin müəyyənləşdirilməsi ilə əlaqədar xidmətə 161 müraciət edilib. Bu dövr ərzində əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Naxçıvan Muxtar Respublikasında haqqıödənilən əmək fəaliyyəti ilə məşğul olmaları üçün iş icazəsinin verilməsi ilə bağlı işəgötürənlər tərəfindən xidmətə 236 müraciət edilib. Hesabat dövrü ərzində Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidməti tərəfindən dövlət büdcəsinə, ümumilikdə, 244765 manat məbləğində pul vəsaiti köçürülüb.

Sonra məruzə ətrafında çıxışlar olub, ötən ildə görülən işlər slaydlar vasitəsilə iclas iştirakçılarının diqqətinə çatdırılıb.

*Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsində 2014-cü ilin yekunları və qarşıda duran vəzifələrə həsr olunmuş kollegiya iclası keçirilib.*

## Dövlət Gömrük Komitəsində kollegiya iclası keçirilib



Komitə sədri, gömrük xidməti general-leytenantı Asəf Məmmədov tədbiri giriş sözü ilə açaraq qeyd edib ki, ötən il may ayının 7-də Naxçıvan Hava Nəqliyyatında Gömrük İdarəsi üçün inzibati bina və kinoloji xidmət binası istifadəyə verilib, "Naxçıvanterminalkompleks" Birliyi üçün inşa olunan yeni inzibati binada işlər tamamlanıb, infrastrukturun yenidən formalaşdırılması istiqamətində xeyli iş görülüb.

Sədərək sərhəd gömrük-buraxılış məntəqəsi üçün modern kompleksin qurulması muxtar respublikada həyata keçirilən mühüm infrastruktur layihələrindən biri kimi dəyərləndirən komitə sədri sərhəd-keçid kompleksinin beynəlxalq standartlara cavab verən və müasir dizaynı ilə seçilən baş planının hazırlandığını, ərazidə torpaqlama işlərinin yekunlaşdırıldığını deyib.

Vurğulanıb ki, Culfa və Şahtaxtı sərhəd-keçid məntəqələrindən sonra 2014-cü ildə Sədərək sərhəd-keçid məntəqəsində də X-Ray tipli rentgen nəzarət qurğusunun istifadəyə verilməsilə regiona bütün istiqamətlərdən gələn yüklərə gömrük nəzarəti daha da gücləndirilib, bununla da risk əmsalı minimuma endirilib.

Qeyd olunub ki, gömrük orqanları tərəfindən dövlət büdcəsinin formalaşdırılması məqsədilə 2014-cü il üçün müəyyən olunmuş 6 milyon manat proqnoza qarşı 10 milyon manat vəsait toplanaraq proqnoz-tapşırığa 167 faiz əməl edilib. Toplanmış vəsait Naxçıvan Muxtar Respublikasının büdcə gəlirlərinin 13,6 faizini təşkil edib. Gömrük ödənişlərinin 59 faizi avtonəqliyyat vasitələrinin, 41 faizi isə digər malların rəsmiləşdirilməsi hesabına əldə olunub. Gömrük rüsumu və vergilərin bank, POS-terminal və ya internet üzərindən elektron qaydada ödənilməsinə diqqət artırılıb.

Ötən il muxtar respublikanın xarici ticarət dövriyyəsi 2013-cü illə müqayisədə 3,1 faiz artaraq 517 milyon 427 min ABŞ dolları səviyyəsinə çatıb. İl ərzində, ümumilikdə, 56 xarici dövlətlə ticarət əməliyyatları aparılıb. Muxtar respublikanın sosial-iqtisadi inkişafının məntiqi göstəricisi olaraq ixracın həcminin idxalı üstələməsi, nəticə etibarilə, xarici ticarət dövriyyəsində ixrac əməliyyatlarının payını 79 faizə çatdırıb. İdxal-ixrac əməliyyatları üzrə yaranmış müsbət saldo 299 milyon 853 min ABŞ dolları olub. 2013-cü illə müqayisədə ixracın həcmi 2 faiz artdığı halda, idxalın həcmi 1 faiz azalıb.

Komitə sədri qeyd edib ki, muxtar respublikada qəbul olunmuş dövlət proqramlarından, Ali Məclisin sessiyalarından, keçirilən müşavirələrdən irəli gələn vəzifələrin yerinə yetirilməsi daxili bazarın qorunması sahəsində illik fəaliyyətin əsas istiqamətini təşkil edib. Ümumilikdə, 2014-cü il ərzində daxili bazarın qorunması məqsədilə 21 min 180 kq əmtəənin muxtar respublikaya gətirilməsinin qarşısı alınıb. İl ərzində istehlak müddəti göstərilmədiyindən və ya bitdiyindən, tərkibində nitratların həcmi normadan artıq olduğundan, keyfiyyəti standartlara cavab vermədiyindən 88 min 800 kq əmtəə geri qaytarılıb, 8 min 300 kq əmtəə isə müvafiq qaydada məhv edilib.

Sonra tabeli gömrük orqanlarının rəisləri idarələrin illik fəaliyyəti ilə bağlı hesabat veriblər.

Kollegiya iclasında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatı rəhbərinin müavini, Qanunçuluq və hüquq-mühafizə orqanları ilə iş şöbəsinin müdiri Cəlil Rüstəmov çıxış edərək qarşıda duran vəzifələrdən danışıb.

## İnsan hüquqlarının müdafiəsinə, hüquqi maarifləndirmə işinin təşkilinə diqqət daha da artırılıb

*Fevralın 19-da Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Aparatında 2014-cü ilin yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclas keçirilib.*

İclasda Müvəkkil (Ombudsman) Ülkər Bayramova məruzə ilə çıxış edib. Bildirilib ki, 2014-cü ildə Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili fəaliyyətini insan hüquqlarının müdafiəsi, daxil olan müraciətlərin araşdırılması və müvafiq tədbirlərin görülməsi, elmi-analitik fəaliyyətin, əhalinin müxtəlif sosial qruplarına ünvanlanan hüquqi maarifləndirici tədbirlərin həyata keçirilməsi və bu məqsədlə müvafiq maarifləndirici vəsaitlərin hazırlanması, paylanması, ictimaiyyətlə, informasiya vasitələri və beynəlxalq təşkilatların Azərbaycan ofisləri ilə əməkdaşlığının daha da inkişaf etdirilməsi istiqamətində davam etdirib.



Vurğulanıb ki, Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinə (Ombudsmana) vətəndaşlar tərəfindən yazılı, şifahi və elektron formada 117 müraciət daxil olub, müraciətlərə qanunla müəyyən edilmiş müddətlərdə baxılıb, daxil olan bütün müraciətlər cavablandırılıb. Müvəkkilin fəaliyyətinin əsas istiqamətlərindən biri insan hüquq və azadlıqlarının təbliği, hüquqi maarifləndirmə işinin təşkil edilməsidir. 2014-cü il ərzində Müvəkkil təsisatı tərəfindən, ümumilikdə, muxtəlif sosial qruplara ünvanlanmış 86 tədbir keçirilib.

Müvəkkilin rəsmi internet səhifəsində informasiyaların mütəmadi olaraq yenilənməsinin, qanunvericilik bazasının zənginləşdirilməsinin, muxtar respublikada insan hüquqları ilə bağlı həyata keçirilən tədbirlərin, o cümlədən Müvəkkilin və təsisatın fəaliyyətinin işıqlandırılmasının, elektron müraciət səhifəsinin fəaliyyətinin daim diqqət mərkəzində saxlanıldığını vurğulayan Ülkər Bayramova qeyd edib ki, 2014-cü ildə Müvəkkilin rəsmi internet səhifəsinin elektron kitabxana bazası qanunvericilik aktları ilə, o cümlədən Müvəkkil təsisatında hazırlanmış hüquqi maarifləndirici vəsaitlərlə mütəmadi olaraq zənginləşdirilib.

Müvəkkil (Ombudsman) qarşıda duran vəzifələrdən də danışaraq bildirib ki, təsisat 2015-ci ildə də insan hüquqlarının müdafiəsinin daha səmərəli həyata keçirilməsi məqsədilə dövlət qurumları, vətəndaş cəmiyyəti təsisatları, kütləvi informasiya vasitələri ilə qarşılıqlı əməkdaşlıq nəticəsində əldə edilən müsbət təcrübəni daha da inkişaf etdirəcək və mütəmadi təkmilləşdirəcəkdir.

Sonra məruzə ətrafında Müvəkkil Aparatının əməkdaşları Babək Hacıyevin, Abil Orucəliyevin, Sadiq Babayevin çıxışları olub.

**Xəbərlər şöbəsi**

# Görülən işlər təhlil edilib, qarşıda duran vəzifələr müəyyənləşdirilib

*Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyada 2014-cü ilin yekunları və qarşıda duran vəzifələrlə əlaqədar yığıncaq keçirilib.*

Yığıncağı giriş sözü ilə açan komissiyanın sədri Etibar Musayev 2014-cü ildə görülən işlərdən danışıb. Qeyd olunub ki, 2014-cü ildə komissiya tərəfindən etik davranış qaydalarına riayət edilməsi və dövlət orqanlarının kadr qurumlarının işinin gücləndirilməsi məqsədilə aprel, may, iyun və iyul ayları ərzində dövlət orqanlarında maarifləndirici seminarlar keçirilib. Seminarlarda "Etik davranış qaydaları haqqında" Qanunun tələbləri, dövlət qulluqçularının şəxsi işinin və onların reyestrinin aparılması qaydalarından bəhs edilib.

Komissiya tərəfindən 2014-cü il mart, sentyabr aylarında vakant dövlət qulluğu vəzifələrinin tutulması, mart, aprel, iyul, sentyabr və dekabr aylarında müvafiq olaraq, Naxçıvan Muxtar Respublikasının daxili işlər orqanlarında, Fövqəladə Hallar Nazirliyində, prokurorluq və vergi orqanlarında vakant vəzifələrin tutulması üçün elan olunmuş müsabiqələrin test imtahanları mərhələləri keçirilib.

Komissiya sədrinin sözlərinə görə, komissiyada test mərkəzinin yaradılması və imtahanların elektron formada obyektiv və şəffaf şəraitdə keçirilməsi üçün əlavə tədbirlərin görülməsi müxtəlif sahələrə aid olan imtahan proseslərinin yüksək səviyyədə təşkilinə və keçirilməsinə imkan verib.

Qeyd olunub ki, ölkəmizdə dövlət qulluğu sahəsində və dövlət qulluğu ilə əlaqədar digər sahələr üzrə qanunvericilikdə yeniliklərin tətbiq edilməsi dövlət qulluğuna qəbulla bağlı keçirilən müsabiqələrdə istifadə olunan test suallarının yeni qanunvericiliyə uyğun tərtib olunması zərurətini yaradır. Bu məqsədlə mövcud test bankı üzərində mütəmadi olaraq yenilənmə işinin aparılması davam etdirilib, test bankının ekspertizası həyata keçirilib. Test bankının zənginləşdirilməsi və yeni test suallarının əlavə edilməsi üçün də tədbirlər görülüb.

"Komissiyanın əsas vəzifələrindən biri də dövlət qulluqçularının reyestrinin aparılmasıdır", – deyən komissiya sədri əlavə edib ki, 2014-cü ildə bu iş davam etdirilib, dövlət orqanları ilə mütəmadi əlaqə saxlanılaraq dövlət qulluqçularının reyestrində baş verən dəyişikliklər vaxtında toplanıb reyestr bazasına işlənib.

Komissiyanın fəaliyyətinin gücləndirilməsinə dair tədbirlər planında dövlət qulluqçularının reyestrinin aparılması, attestasiyaların və xüsusi dövlət orqanları üçün imtahanların keçirilməsi məqsədilə 3 yeni proqram hazırlanması öz əksini tapıb. Bu məqsədlə texniki tələblər hazırlanıb və icraçı şirkətə təqdim olunub. İcraçı şirkət tərəfindən hər üç proqram təminatı hazırlanıb və komissiyanın mərkəzi serverində yerləşdirilib. Komissiya tərəfindən nəzərdə tutulmuş elektron xidmətlərin göstərilməsi üçün müasir tələblərə uyğun internet saytı hazırlanıb.

Komissiyanın 2015-ci ildəki fəaliyyət planından da bəhs edən Etibar Musayev cari ildə qarşıya qoyulmuş vəzifələrin vaxtında icrasına nail olmaq üçün səylə çalışacaqlarını bildirib.

Sonra məruzə ətrafında çıxışlar olub.

* * *

***Naxçıvan Muxtar Respublikası Satınalmalar üzrə Dövlət Agentliyində 2014-cü ilin yekunlarına həsr olunmuş yığıncaq keçirilib.***

Yığıncağı agentliyin direktoru Qardaşxan Əliyev açaraq məruzə ilə çıxış edib. Bildirilib ki, dövlət satınalmaları üzrə keçirilən müsabiqələrdə ədalətli rəqabət, aşkarlıq və şəffaflıq prinsiplərini təmin etmək, dövlət vəsaitlərindən qənaətlə və səmərəli istifadə olunmasına zəmin yaratmaq, dövlət satınalmalarını tənzimləyən normativ-hüquqi bazanı təkmilləşdirmək və dövlət satınalmalarına cəlb olunan mütəxəssislərin ixtisas səviyyəsini artırmaq məqsədilə ötən il agentlik tərəfindən müəyyən işlər görülüb və bu istiqamətdə fəaliyyət genişləndirilib. Dövlət vəsaitləri, o cümlədən büdcə vəsaitləri, kreditlər, qrantlar və dövlət müəssisələrinin xüsusi vəsaitləri hesabına keçirilən satınalmalarla əlaqədar müəssisə və təşkilatların tender komissiyalarına agentliyin əməkdaşları tərəfindən tender prosedurlarının təşkili və keçirilməsinə dair metodik köməklik göstərilib, tender sənədlərinin hazırlanmasına dair izahatlar verilib.



Qeyd olunub ki, 2014-cü il ərzində muxtar respublikanın müəssisə və təşkilatları tərəfindən 129 satınalma proseduru həyata keçirilib. Müsabiqə yolu ilə keçirilmiş 129 satınalma proseduru üzrə bağlanmış satınalma müqavilələrinin qiyməti 46373406,00 manat təşkil edib. Ümumilikdə, ötən il ərzindəki qənaətin 37731,00 manat və ya 2,39 faizi açıq tender üsulu ilə, 272863,00 manat və ya 17,31 faizi kotirovka sorğusu ilə, 1265993,00 manat və ya 80,30 faizi isə təkliflər sorğusu üsulu ilə keçirilən satınalmalardan əldə olunub.

Vurğulanıb ki, 2014-cü il ərzində dövlət vəsaiti hesabına 2184741,00 manat məbləğində ərzaq məhsulları, 5870764,00 manat məbləğində dərman preparatları, 435767,00 manat məbləğində dəftərxana ləvazimatları və təsərrüfat malları, 377858,00 manat məbləğində əşya əmlakları, 4809653,00 manat məbləğində mal-material, hidrotexniki avadanlıqlar və əsas vəsaitlər, 886804,00 manat məbləğində qaz təsərrüfatında təmir işləri satın alınıb, 31807819,00 manat məbləğində əsaslı tikinti və yenidənqurma işləri həyata keçirilib. Ümumilikdə isə 2014-cü il ərzində keçirilmiş 129 satınalma müsabiqəsindən 1576587,00 manat dövlət vəsaitinə qənaət edilib.

Sonra məruzə ətrafında çıxışlar olub.

***Fevralın 18-də Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsində keçirilən kollegiya iclasını komitənin sədri Kamal Cəfərov açaraq məruzə ilə çıxış edib.***

Qeyd olunub ki, muxtar respublikanın sosial-iqtisadi həyatında baş verən dəyişikliklərin qeydə alınması, təhlil edilərək ümumiləşdirilməsi istiqamətində statistika orqanları tərəfindən 2014-cü ildə qanunvericilik üzrə müəyyən tədbirlər görülüb, statistik vahidlərin dövlət reyestrində qeydiyyatda olan təsərrüfat subyektlərinin göstəricilərinin aktuallaşdırılması görülmüş tədbirlər nəticəsində nəzərdə tutulmuş vaxtda başa çatdırılıb. Statistik vahidlərin dövlət reyestrində qeydiyyatda olan bütün müəssisələrlə əlaqə yaradılıb, müvafiq göstəricilər dəqiqləşdirilib. Bu dövr ərzində hesabat intizamına cəlb olunmayan hüquqi şəxs qalmayıb.

Şəhər və rayon Statistika idarələri ilə birlikdə komitə aparatının müvafiq şöbələri tərəfindən 12665 təsərrüfat subyektindən 46674 ədəd hesabat yığılıb ki, bunun da 46581-i və ya 99,8 faizi onlayn rejimdə daxil olub. Komitə aparatının müvafiq şöbələri tərəfindən 28 adda, o cümlədən "2013-cü ildə Naxçıvan Muxtar Respublikasının əsas demoqrafik göstəriciləri haqqında", "2013-cü ildə Naxçıvan Muxtar Respublikasında təhsil, səhiyyə, mədəniyyət, pensiya təminatı və idmanın vəziyyəti haqqında", "2014-cü ilin yanvar-mart aylarında Naxçıvan Muxtar Respublikasında sənayenin inkişafı haqqında" və "2014-cü il üzrə qəti əkinin yekunlarına dair" təhlili məruzələr hazırlanıb.



Qeyd olunub ki, 2014-cü ildə komitə aparatının aidiyyəti şöbələri tərəfindən Dövlət Statistika Komitəsinin internet saytında 2013-cü ilin yekunları üzrə müvafiq göstəricilər yerləşdirilib. İnternet saytında 2014-cü il üzrə aylıq makroiqtisadi göstəricilərin, təhlil materiallarının və muxtar respublikada istifadəyə verilmiş obyektlərin fotoşəkillərinin yerləşdirilməsi işləri aparılıb.

2014-cü il ərzində kütləvi informasiya vasitələri ilə də sıx əlaqə saxlanılıb, muxtar respublikanın sosial-iqtisadi vəziyyətini əks etdirən kompleks materiallar dərc edilib.

Sonra məruzə ətrafında çıxışlar olub.

* * *

***Fevralın 18-də Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunda da 2014-cü ildə görülmüş işlərə həsr olunmuş iclas keçirilib.***

İclasda fondun sədri Rasim Hüseynov məruzə ilə çıxış edərək bildirib ki, 2014-cü ildə Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun hesabına 48 milyon 689 min manat plana qarşı 59 milyon 63 min 700 manat vəsait daxil olub, proqnoz tapşırıqlara 121,3 faiz əməl edilib. Daxil olan vəsait nəzərdə tutulan məbləğdən 10 milyon 374 min 700 manat, yaxud 21,3 faiz, 2013-cü ilin müvafiq dövründə yığılan vəsaitdən isə 6 milyon 148 min 240 manat, yaxud 11,6 faiz çox olub. Məcburi dövlət sosial sığorta haqlarının 39 milyon 468 min 990 manatı, yaxud 66,8 faizi büdcə təşkilatlarının, 19 milyon 594 min 710 manatı, yaxud 33,2 faizi isə qeyri-büdcə təşkilatlarının hesabına olub.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən özəl sektora göstərilən diqqət və qayğının, bu sahənin sürətli inkişafı üçün yaradılan əlverişli şəraitin nəticəsidir ki, 2014-cü ildə özəl sektordan daxil olan məcburi dövlət sosial sığorta haqqı 11 milyon 56 min 990 manat olub ki, bu da əvvəlki illə müqayisədə 1 milyon 658 min 250 manat, yaxud 17,6 faiz çoxdur. Nəticədə, hesabat dövründə özəl sektordan daxil olan vəsaitlər ümumi daxilolmaların 18,7 faizini təşkil edib. Bu göstərici ötən ilin müvafiq göstəricisindən 0,9 faiz çoxdur.



Hesabat dövründə pensiya və müavinətlərin maliyyələşdirilməsinə 112 milyon 830 min 298 manat vəsait yönəldilib. 2014-cü ildə pensiya və müavinətlərə yönəldilən vəsaitdə mövcud olan artım ölkə Prezidentinin imzaladığı müvafiq sərəncamlar əsasən, əmək pensiyalarında aparılan artımlar hesabına olub.

Fond sədrinin sözlərinə görə, Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondu və onun yerli orqanları bundan sonra da bütün səylərini dördüncü çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin onuncu sessiyasında təsdiq olunmuş fondun 2015-ci il büdcəsinin gəlir və xərclərinin yerinə yetirilməsinə və 2015-ci il fevralın 9-da Naxçıvan Muxtar Respublikasında 2014-cü ilin yekunları və qarşıda duran vəzifələrə dair keçirilmiş müşavirədə qarşıya qoyulmuş tapşırıqların icrasına, elektron xidmətlərin tətbiqinə, o cümlədən məcburi dövlət sosial sığorta haqlarının onlayn ödəmə rejimində həyata keçirilməsinə, avtomatlaşdırılmış pensiya təyinatı ilə bağlı maarifləndirmə işlərinin gücləndirilməsinə, müvafiq dövlət orqanları ilə birlikdə işçilərlə işəgötürənlər arasında əmək müqavilələrinin bağlanmasına nəzarət edilməsinə, vətəndaşlara pensiya və müavinətlərin qanunvericilikdə nəzərdə tutulmuş qaydada təyinatına, pensiyaların hər ay vaxtında ödənilməsinə və muxtar respublikada yeni formalaşan fərdi uçot sisteminin tam şəkildə qurulmasına yönəldəcəkdir.

Sonra məruzə ətrafında çıxışlar olub.

Yığıncaqda Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin müdiri Rəhman Məmmədov çıxış edərək qarşıda duran vəzifələrdən danışıb.

* * *

***Naxçıvan Dövlət Universitetində (NDU) 2014-cü ilin yekunları və qarşıda duran vəzifələrə həsr olunmuş iclas keçirilib.***

İclası rektor, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov açaraq mövzu ilə bağlı məruzə edib. Rektor universitetin ötən il elm, tədris, beynəlxalq əlaqələrin inkişafı sahəsində qazandığı uğurlardan bəhs edərək qeyd edib ki, universitet müasir dünya təhsil sisteminin tələblərinə cavab vermək üçün tarixi inkişaf yolu ilə inamla irəliləyib. Universitetin dövlət qayğısı hesabına maddi-texniki bazasının gücləndirilməsinin nəticəsidir ki, ötən tədris ilində yeni tədris korpusları tikilib, müasir avadanlıqlarla təchiz olunmuş yeni tədris laboratoriyaları, fənn kabinələri istifadəyə verilib. "Baytarlıq" ixtisasının yeni tədris korpusunun və universitet xəstəxanasının yeni binasının tikintisi davam etdirilib.

Saleh Məhərrəmovun sözlərinə görə, universitet müasir informasiya-kommunikasiya vasitələrinin tətbiqini prioritet istiqamət seçib. Ötən müddət ərzində ali təhsil ocağında elektron universitet layihəsi, imtahanların elektron test üsulu ilə şəffaf və obyektiv keçirilməsi istiqamətində əhəmiyyətli uğurlara imza atılıb.



Dünya təhsil sisteminə inteqrasiya, təcrübə mübadiləsi, beynəlxalq əlaqələrin inkişafı istiqamətində görülən işlərdən də bəhs edən rektor bildirib ki, Naxçıvan Dövlət Universiteti 80-dən çox tanınmış dünya universitetləri ilə əməkdaşlıq edir. Ali təhsil ocağı "Tempus" proqramı ilə qarşılıqlı əməkdaşlıq şəraitində 5 layihənin iştirakçısıdır. 2014-cü ildə Azərbaycan ali məktəbləri içərisində ən irihəcmli layihə olan, Koreya Beynəlxalq Əməkdaşlıq Agentliyi (KOICA) ilə birgə həyata keçirilən "Naxçıvan Dövlət Universiteti üçün elektron təhsil şəbəkəsi və rəqəmsal multimedia infrastrukturunun yaradılması" layihəsinin tamamlanması Azərbaycan ali təhsil tarixində əlamətdar hadisədir.

Vurğulanıb ki, universitetdə tələbə mobilliyi də diqqət mərkəzindədir. Bu proses qarşılıqlı müəllim və tələbə mübadiləsi proqramı olan "Mövlana" proqramı çərçivəsində aparılır. Bu proqram sayəsində universitetin 8 tələbəsi tibb təhsilini Türkiyədə davam etdirir. Universitet tələbələri Cənubi Koreyanın Kimçonq Universitetində, Türkiyə universitetlərində, Rusiya Federasiyasının və Ukraynanın müxtəlif ali məktəblərində bir il və ya bir semestr müddətində ali təhsil almağa göndərilir. "Erasmus-Mundus" proqramı üzrə isə bir tələbə Çexiyada, bir tələbə isə Rumıniyada birillik təhsil almaq hüququ qazanıb. Naxçıvan Dövlət Universiteti mübadilə yolu ilə gələn xarici tələbələrə də uğurla ev sahibliyi edir. Doktorantura pilləsində universitetdə təhsil alan tələbələr sırasında Slovakiya və Polşa vətəndaşları da var.

2014-cü ilin ən mühüm, yaddaqalan hadisəsi isə Naxçıvan Dövlət Universitetinin "Azərbaycanda ali məktəblərin reytinqinin müəyyən edilməsi" layihəsi üzrə müsabiqədə ölkə üzrə birinci yeri tutmasıdır. Bu uğurlar universitet kollektivində böyük ruh yüksəkliyi yaratmaqla qarşıda duran vəzifələrin öhdəsindən layiqincə gəlmək üçün kollektivi daha böyük səy və əzmkarlığa çalışmağa sövq edir.

İclasda İqtisadiyyat kafedrasının dosenti, kənd təsərrüfatı üzrə fəlsəfə doktoru Dilsuz Qasımov, Tarix-filologiya fakültəsinin dekanı, filologiya üzrə fəlsəfə doktoru, dosent İman Cəfərli və başqaları çıxış ediblər.

**Xəbərlər şöbəsi**

*Dövlət proqramı necə icra olunur?*

# Əsas hədəf səmərəli məşğulluğun təmin edilməsidir

***Peşə və ixtisasından asılı olmayaraq, hər kəs üçün faydalı olan əməyin təşkili, insanların bilik, bacarıq və vərdişlərindən maksimum səmərə ilə istifadə olunması inkişafın mühüm amili hesab olunur. Mövcud iş yerlərinə iqtisadi fəal əhalinin münasibətlərini tənzimləyən, hər kəsin qabiliyyətindən, sahib olduğu iş qüvvəsindən səmərəli istifadəni qarşıya məqsəd qoyan dövlətin məşğulluq siyasəti də bu vacib məsələnin həllinə xidmət edir.***

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 18 dekabr 2013-cü il tarixli Sərəncamı ilə təsdiq edilmiş “2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı” da gələcəkdə muxtar respublikada əhalinin daimi iş yerləri ilə təminatında qarşıda duran vəzifələrin müəyyənləşdirilməsi və həlli məqsədi daşıyır. Əhalinin sosial müdafiəsinə birbaşa təsir edən məşğulluq probleminin davamlı olaraq gündəmdə olması dövlətin bu sahədə yeritdiyi ardıcıl siyasətlə dəstəklənir.

Dövlət proqramında muxtar respublikada əhalinin səmərəli məşğulluğunun inkişafına yönəldilən tədbirlərin həyata keçirilməsi istiqamətində müxtəlif dövlət qurumları qarşısında konkret vəzifələr müəyyənləşdirilib. Ötən dövr ərzində əhalinin məşğulluq məsələlərinin təmin olunması sahəsində verilmiş tapşırıqların icrası istiqamətində görülmüş işlərlə tanış olmaq üçün proqramda adıçəkilən dövlət orqanlarına elektron məktublarla sorğular göndərdik. Alınan cavablardan gəlinən ümumi nəticə belədir ki, 2014-cü il ərzində muxtar respublikada 3523 yeni iş yeri açılıb, muxtar respublikanın əmək bazarında tələb və təklifin müəyyənləşdirilməsi məqsədilə təhlillər aparılması davam etdirilib. Müxtəlif peşə istiqaməti üzrə kadrlara olan tələbatın müəyyənləşdirilməsi üçün bu təhlillər mühüm əhəmiyyət kəsb etməklə, eyni zamanda muxtar respublikanın əmək bazarında əcnəbi işçiyə olan tələbatın müəyyənləşdirilməsi üçün də vacib hesab olunur. Bu məqsədlə işəgötürənlərdən alınmış məlumatlara əsasən, 2015-ci il üçün əmək miqrasiyası kvotasının təsdiq edilməsi məqsədilə Dövlət Miqrasiya Xidməti tərəfindən müvafiq proqnoz tərtib olunaraq Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinə təqdim edilib, müvafiq qərarla 2015-ci il ərzində muxtar respublika ərazisində əmək fəaliyyəti ilə məşğul olmalarına icazə verilən əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin sayı 700 nəfər müəyyənləşdirilib.

Qeyd olunmalıdır ki, həyata keçirilən tədbirlər nəticəsində, ötən illərdən fərqli olaraq, 2014-cü ildə muxtar respublika ərazisində müxtəlif sahələrdə çalışan əcnəbilərin sayında azalma müşahidə olunub. Belə ki, ötən illərdə müvafiq sahələrdə çalışan işçilərin əksər hissəsini əcnəbilər təşkil edirdisə, hazırda bu sahələrdə işə qəbul zamanı yerli əmək ehtiyatlarına üstünlük verilib.

Əhalinin məşğulluğunun təmin olunmasında aktiv məşğulluq tədbirləri mühüm əhəmiyyətə malikdir. Bu baxımdan 2014-cü il ərzində məşğulluq xidməti orqanlarında qeydiyyatda olan 2727 işaxtaran regionda fəaliyyət göstərən müəssisələrdə mövcud olan vakansiyalar üzrə işə qəbul edilib. Ötən il ərzində keçirilmiş əmək yarmarkalarında 943 nəfər özünə iş yeri tapıb.

Məşğulluq məsələlərində, şübhəsiz, sahibkarlığın rolu böyükdür. Ötən dövrdə kiçik və orta sahibkarlığın inkişafı, yeni iş yerlərinin yaradılması məqsədilə muxtar respublikada fəaliyyət göstərən banklar tərəfindən bu istiqamətdə dövlət maliyyə dəstəyinin göstərilməsi davam etdirilib, 2014-cü il ərzində 53 milyon 705 min manat, o cümlədən Naxçıvan Muxtar Respublikası İqtisadiyyat və Sənaye Nazirliyinin Sahibkarlığa Kömək Fondu tərəfindən 6 milyon 30 min manat güzəştli şərtlərlə kreditlər verilib.

Əmək bazarının tələbinə müvafiq olaraq işaxtaranların peşə hazırlığının təşkili məşğulluq məsələlərinin həllində xüsusilə əhəmiyyətlidir. Bu məqsədlə Naxçıvan Regional Peşə Tədris Mərkəzində təşkil edilmiş peşə kurslarını 306 müdavim bitirərək iş yerlərinə göndərilib. Eyni zamanda 2014-2015-ci tədris ilində Təhsil Nazirliyinin tabeliyində olan peşə məktəblərində də peşə kursları təşkil edilib, kursları bitirən müdavimlər iş yerlərinə göndəriliblər.

İşaxtaranların və işçilərin peşə hazırlığının artırılması məqsədilə İqtisadiyyat və Sənaye Nazirliyi tərəfindən “Naxçıvan Biznes Mərkəzi” MMC-də bir dəfə 9 ictimai iaşə obyektində, 2 dəfə 42 pərakəndə satış obyektində fəaliyyət göstərən işçilərə müvafiq tədris kursları keçilib, muxtar respublikada fəaliyyət göstərən təhsil müəssisələrinin və şadlıq saraylarının xidmət sahələrində çalışan işçilər üçün vahid geyim formaları müəyyən olunub, həmin formaların yerlərdə tətbiqi həyata keçirilib. Bundan başqa, İqtisadiyyat və Sənaye Nazirliyi tərəfindən “Naxçıvan Biznes Mərkəzi” MMC-nin tabeliyində fəaliyyət göstərən Xalq yaradıcılıq emalatxanasında ağac üzərində oyma, rəssamlıq, dekorativ tətbiqi sənət növləri üzrə sahələrin fəaliyyəti davam etdirilib.

İnsanların peşəyönümü hələ gənc yaşlarından formalaşır. Bunu nəzərə alaraq, Naxçıvan Muxtar Respublikası Təhsil, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirliklərinin birgə təsdiq etdiyi qrafikə uyğun olaraq, tədris müddəti ərzində rayon (şəhər) Məşğulluq mərkəzləri tərəfindən muxtar respublikanın bütün ümumtəhsil məktəblərində yuxarı sinif şagirdlərinin peşə seçiminə köməklik məqsədilə əmək bazarının tələbinə uyğun peşə və ixtisaslar barədə məlumatlar verilib.

Dövlət proqramının icrası istiqamətində ötən dövr ərzində sosial cəhətdən həssas əhali qruplarının məşğulluğu üzrə də bir sıra işlər görülüb. Bu kateqoriyadan olan şəxslərin özünüməşğulluqlarının təmin olunması istiqamətində görülən işlər nəticəsində 2014-cü il ərzində sosial qayğıya ehtiyacı olan şəxslərin hazırladıqları ümumi dəyəri 4886,5 manat təşkil edən 8 rəsm, 109 əl işi və 13 xalçanın satışı həyata keçirilib. Ünvanlı dövlət sosial yardımı almaq üçün rayon (şəhər) Əhalinin Sosial Müdafiəsi mərkəzlərinə müraciət edən aztəminatlı ailələrin əmək qabiliyyətli 186 üzvü də münasib işlə təmin olunub. Bundan başqa, sosial müdafiəyə ehtiyacı olanların, sağlamlıq imkanları məhdud və cəzaçəkmə müəssisələrindən azad edilmiş şəxslərin sosial reabilitasiyası məqsədilə müvafiq dövr ərzində sağlamlıq imkanları məhdud 40 nəfər peşə kurslarına cəlb edilib, əlavə olaraq Penitensiar Xidmətin cəzaçəkmə müəssisəsində “misgər” və “kompüter istifadəçisi” peşə hazırlığı kursları təşkil edilib.

İşçilərin əmək hüquqlarının təmin edilməsi hazırda dövlətimizin qarşıya qoyduğu mühüm məsələlərdəndir. Bu istiqamətdə muxtar respublikada qeyri-formal məşğulluğun qarşısının alınması, işəgötürülən şəxslərlə əmək müqavilələrinin bağlanması və əməkhaqlarının reallığı əks etdirməsinə nəzarətin həyata keçirilməsi nəticəsində Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən ötən il ərzində 298 sahibkarlıq obyektində 242 halda yeni əmək müqaviləsinin bağlanılmasına, 514 halda isə əməkhaqların real göstərilməsinə nail olunub. Bu dövr ərzində əməyin mühafizəsi normaları, qaydaları və standartlarına əməl olunmasına nəzarət gücləndirilib, nöqsanların aradan qaldırılması və əməyin mühafizəsi istiqamətində digər zəruri tədbirlər görülüb. 2014-cü il ərzində 659 müəssisədə işçilərin istehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə-əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta müqavilələrinin bağlanmasına nail olunub. Bu sahədə peşəkarlığın artırılması məqsədilə əməyin mühafizəsi üzrə mütəxəssislərin hazırlanması üçün ötən il ərzində 3 dəfə Naxçıvan Regional Peşə Tədris Mərkəzində kurslar təşkil edilib.

Əmək bazarı işləmək istəyən şəxslə mövcud iş yerləri arasındakı münasibətlər məkanıdır. Və buradakı proseslər mühüm dərəcədə informasiya mübadiləsinin təşkilindən asılıdır. Odur ki, işaxtaranların məlumatlandırılması məqsədilə ötən il ərzində Rabitə və Yeni Texnologiyalar, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirlikləri tərəfindən məşğulluq tədbirlərinin – peşə hazırlığı, haqqıödənilən ictimai işlər, vakansiyalar və işəgötürənlərin işçi qüvvəsinə olan tələbləri barədə məlumatların işaxtaranlara çatdırılması məqsədilə internet saytı ***(isaxtar.nmr.az)*** hazırlanıb. Bu ilin 30 yanvarında işəgötürənlərin həvəsləndirilməsi məqsədilə “Ən fəal işəgötürən” nominasiyası üzrə keçirilmiş müsabiqə və qaliblərə verilən mükafatlar muxtar respublikada insanların işlə təmin olunmasında işəgötürənlərin fəallıqlarının artırılmasını təşviq məqsədi daşıyır.

Aparılan təhlillər onu deməyə əsas verir ki, 2014-cü il ərzində bu mühüm dövlət proqramının icrası ilə bağlı həyata keçirilən kompleks tədbirlər muxtar respublikada işaxtaranların səmərəli məşğulluğunun təmin edilməsinə, peşə hazırlığının əmək bazarının tələblərinə uyğunlaşdırılmasına, işaxtaran şəxslərin sosial müdafiəsinin gücləndirilməsinə əsaslı zəmin yaradıb.

**Səhifəni hazırladı ✍ Əli CABBAROV**

***İqtisadiyyat inkişaf etdikcə gəlirlər də artır və bununla da, insanların tələbatlarının ödənilməsi üçün əlavə imkanlar yaranır. Xarici bazarlara çıxarılan yerli məhsullar, habelə xaricdən gətirilən mallar – hamısı məhz insanların tələbatının ödənilməsi üçündür. Bu, tarixən də belə olub.***

# Yerli məhsullar iqtisadiyyatımızın gücü, süfrəmizin bəzəyidir




Hələ min il əvvəl Azərbaycandan keçən qədim İpək Yolu vasitəsilə tacirlər Avropadan Çinə, oradan da geriyə müxtəlif məhsullar aparmış, indiki dillə desək, idxal-ixracla məşğul olmuşlar. O dövrdə xaricə aparılan məhsullar arasında nə yox idi? Azərbaycanın ipəyi, xalçası, duzu, meyvəsi, çərəzi, …daha nələr. Xatırlatmaq yerinə düşər ki, hələ iki yüz il bundan əvvəl Naftalan nefti Yaponiyadan Amerikaya qədər bir çox ölkəyə daşınanda bu, Azərbaycanın ilk ixrac nefti olub. Xülasə, insana lazım olan minbir nemət dünyanın harasında olsa, onu gətirmək mümkündür. Qlobal iqtisadiyyatın tamhüquqlu üzvü kimi ölkəmiz dünya ölkələri ilə sərbəst ticarət, iqtisadi-mədəni əlaqələr qurur, öz məhsullarını dünya bazarına çıxarır, əhalisinin tələbatlarının ödənilməsi üçün lazım olanı idxal edir.

Müasir tələbatlar isə çox genişdir. Çox deyil, cəmi on il əvvəlki dövrlə müqayisə edəndə görürük ki, hər keçən gün yaranan yeni tələbatların ödənilməsi üçün istehsal olunan məhsulların da növü və çeşidi artmaqdadır. Bir araşdırmaya görə, təkcə dünyanın sənaye nəhəngi Çində on mindən artıq istehlak təyinatlı məhsullar istehsal olunur. Bu ölkənin dünyadakı əmək bölgüsündə və sənayeləşmədəki yerinə baxdıqda məlum olur ki, çox qısa bir dövrdə aparılan islahatlar nəticəsində passiv idxalçıdan nəhəng ixracatçıya necə çevrilmək mümkün ola bilərmiş. İşgüzarlıq və qənaət olan yerdə təbii ehtiyat, enerji və ya xammal çatışmazlığı olsa da, bacarıqlı sahibkar məhsul istehsal edib, etiketinə də ölkəsinin adını yazmaqla xarici bazarlara çıxara bilir. Nəticədə, yerli məhsullar həm ölkənin tanıtım vasitəsinə, həm də ixracat potensialına çevrilir.

Şübhəsiz, regionun ehtiyatları hesabına yerli məhsullar istehsal etmək iqtisadiyyatın əsas vəzifələrindəndir. Həm də bu, nəyin bahasına olursa olsun, dünya bazarında olan hər bir məhsulun istehsalı demək deyildir. Başqa sözlə, yerli məhsul, xüsusən ərzaq məhsulları regionun yerli xammal ehtiyatları əsasında istehsal oluna bilən, özünün digər analoqlarından keyfiyyəti və qiymətinə görə seçilən məhsullar olmalı, onun istehsalı rentabelli və ekoloji cəhətdən təmiz olmalıdır. Belə olduqda onların istehsalı üzrə təklif olunan biznes layihələrin uğursuzluq ehtimalı da sıfıra yaxın olur.

### *Yerli istehsal və güclü iqtisadiyyat*

Dünyanın harasında olursa olsun, iqtisadiyyatın inkişafında yerli potensialın iqtisadi dövriyyəyə cəlb edilməsi bütün digər alternativlər arasında həmişə ən birinci sırada olub. Yerli məhsulların istehsalına, ilk olaraq, xarici bazarlara çıxış üçün mühüm bir ilkin mərhələ, ixrac bazarlarında yer tutmağa isə yerli məhsulların təkcə xaricdə deyil, eləcə də daxili bazarda rəğbətlə qarşılanmasının əsas yolu kimi baxmaq lazımdır. Heç uzağa getmədən bu gün Naxçıvandan kənara ixrac olunan malların, xüsusən ərzaq məhsullarının elə daxili bazarda da idxal analoqları kimi istehlakçılar tərəfindən seçilməsini qeyd etsək, fikrimizi əsaslandıra bilərik. Belə olduqda hələ də bəzi adamların nostaljisində yaşayan və ötən əsrin 90-cı illərinə qədər bir növ modaya çevrilmiş “importnu mal almaq” düşüncəsini qırmaq üçün, görəsən, hansı işlər görülməli, hansı marketinq və ya reklam üsullarından istifadə olunmalıdır? Yaxşı xatırlayıram ki, təqribən, 15 il əvvəl universitetdə müəllimlərimizdən biri marketinqin nə olduğunu məndən soruşanda bunu onun başa düşəcəyi tərzdə demək üçün nə fikirləşməmişdim? Həmin həmkarım fizik və bir az yaşlı olduğundan marketinq anlayışını ona izah etmək üçün sovet dövründə kərə yağını haradan və necə aldığını xatırlatdım. Cavabı özünə də gülməli gəldi: tapanda 20 kiloqramlıq qutunun hamısını birdən. Doğrudan da, əgər bir mal matah tikə olubsa, onun üçün daha marketinqə ehtiyac yoxdur. Anbarda da olsa, müştəri onu tapıb alacaqdır.

### *Yerli məhsullar və daxili bazar*

O dövrdən bir xeyli zaman keçib. Bugünkü əmtəə və xidmət bolluğunun necə yaradıldığını, bunun o dövrlə fərqinin nədən ibarət olduğunu izah etmək üçün bəzən keçmişə qayıtmaq lazım gəlir. Amma əsas iş təkcə məhsul istehsal edib bazarda bolluq yaratmaqdan ibarət deyil. Bu məhsulların müştərisini də tapmağı yaxşı mənimsəmək lazımdır. Bir neçə il əvvəl konfransda iştirak üçün getdiyim Sankt-Peterburqda satılan “Sirab” sularını görəndə aldığım təəssüratı oxucularla bölüşmək istəyirəm. Doğrudan da, adi halda gözlərimiz etiketinə uyğunlaşmış belə məhsulları Vətəndən min kilometrlərlə uzaqda görəndə – dünyada biz də varıq – deyə, ürəyimiz dağa dönür. Qoy belə uğurlu məhsullarımız daha bol olsun. Onlar nə qədər çox növdə, çox çeşiddə olsa, bir o qədər insana iş imkanı yaradacaq, bir o qədər xarici valyuta qazanacağıq. Ölkənin iqtisadi gücünün bu gün qlobal arenada nə demək olduğunu təkrarlamağa ehtiyac varmı? Elə isə, mən özüm də daxil, bu gün hər fürsətdə ölkəmizin gücündən danışan, onu daha da artırmaq üçün vətənpərvərlik çağırışları edən bir çox ziyalılarımız, görəsən, marketlərdə xarici mallara meyil edəndə nə fikirləşirik? Ola bilər ki, bizim Muradın pendiri bir az yaxşı qablaşdırılmayıb, yaxud Natiqin yerli istehsal olan kolbasası vakuum paketin içərisində deyil. Amma düşünürəm ki, burada da təəssübkeşlik və təşəbbüskarlıq göstərib üzərimizə düşəni etməliyik. Bəli, biz deməsək, lazım gəlsə, tənqid edib tələb etməsək, təyin olunmuş standartlara uyğun olsa da, bəzi yerli məhsullarımız müştəri məmnuniyyətinə cavab verməkdə yerində sayacaq. Dünya isə yerində saymır. İnternet dövrüdür. Nə olsun ki, bizimkilərin heç pulsuz sosial şəbəkələrdə də məhsullarının adları yoxdur. Yaxud illərdir, insanların gözünü yormuş köhnə etiketlərlə məhsulları vitrinə düzürük. Budurmu çevik marketinq strategiyası? İndi sahibkarlar hər vasitə ilə mallarını reklam edir, onlayn satışını təşkil edir. Biz isə onu bilirik ki, heç uzağa getmədən istədiyimiz məhsulları sifariş edib evimizə gətirmək imkanımız var. Amma onu da yaxşı bilirik ki, bəzən mənşəyini, torpağının, suyunun tərkibini bilmədən aldığımız idxal məhsulların əvəzinə yerli Naxçıvan məhsulları alanda süfrələrimizin bəzəyi də, damağımızın dadı da həmişə ürəyimizcə olur.

*Mövzunu davam etdirəcəyik.*



# Qan yaddaşımız



## Qaradağlı və Xocalı soyqırımları

*Ermənilər müntəzəm olaraq soyqırımına məruz qaldıqlarını iddia etməkdə və hər il aprel ayının 24-də bu məsələni bütün dünya ölkələrinin, xüsusilə də böyük dövlətlərin parlamentlərinin gündəminə gətirməkdədirlər. Lakin tarixi faktlar sübut edir ki, ermənilər heç bir zaman soyqırımına məruz qalmamış, əksinə, zaman-zaman dəhşətli soyqırımlar törətmişlər.*

XX əsrin əvvəllərində olduğu kimi, sonlarında da belə bir cinayətə əl atdılar. Bu cinayətlərin görünməyən məqamlarını "böyük Ermənistan" ideologiyası və onun tərkib hissəsi olan Hai-Taht doktrinasında axtarmaq lazımdır. Həmin doktrinaya görə, erməni milli maraqlarının həyata keçirilməsi üçün inqilab, silahlı mübarizələr, terror, cinayət və qırğınların törədilməsi zəruridir. Radikal erməni qrupları istər Türkiyə, istərsə də Azərbaycan türklərinə qarşı müəyyən etdikləri hədəf və məqsədlərini həyata keçirmək üçün hər vasitədən – terror, şiddət, işgəncə – istifadə etməyi vacib sayırlar. Erməni milli psixologiyasına görə, əgər terrordan daha şiddətli bir metod olsa, ermənilər ona da baş vurmalıdırlar. Bu vəziyyət ermənilər arasındakı nifrətin nə qədər güclü bir məqama çatdığını ortaya qoyur. Məhz həmin psixologiyanın təsiridir ki, ermənilər Azərbaycanın ayrılmaz parçası olan Dağlıq Qarabağı və ətraf rayonları işğal etmiş, Azərbaycan türklərinə qarşı Qaradağlı, Xocalı faciələri kimi qanlı cinayətlər törətmişlər. Bu cinayətlər XX əsrdə günahsız əhaliyə qarşı törədilən terrorizmin ən dəhşətlilərindəndir.

Qaradağlı cinayəti 1992-ci il fevralın 17-də Xocavənd rayonunun Qaradağlı kəndində Ermənistan silahlı qüvvələri və Rusiyanın 366-cı alayı tərəfindən törədilən soyqırımıdır. Bu soyqırımını ikinci Xocalı da adlandırırlar. Belə ki, bu kənd sakinlərindən 104 nəfəri girov götürüldükdən sonra qoca və cavanlar ayrı-ayrı maşınlara doldurularaq yolboyu kəndlərdə düşürülmüş və ən qəddar üsullarla qətlə yetirilmişlər. Hətta kənd sakinlərinə də müraciət olunub ki, kim azərbaycanlı öldürmək istəyirsə, gəlib istədiyi girovu öldürə bilər. Beləliklə, ermənilər girov götürülənlərdən 67 nəfəri öldürdükdən sonra onları qazdıqları quyuya doldurmuşlar. Öldürülənlərdən 10-u qadın, 8-i uşaq idi. İki ailənin hər birindən 4 nəfər şəhid olub, 42 ailə başçısını itirib, 140-a yaxın uşaq yetim qalıb. İşğal nəticəsində kənddə 200 ev, 1 mədəniyyət evi, 320 yerlik orta məktəb binası, 25 çarpayılıq xəstəxana binası və digər obyektlər dağıdılıb. Kəndin 800 nəfərə yaxın sakini məcburi köçkün həyatına məcbur edilib.

Beləliklə, fevral ayının 17-də Qaradağlı soyqırımının törədülməsi ilə Xocalıya gedən yol tamamilə açıldı. Qaradağlı soyqırımı ilə kifayətlənməyən ermənilər Xocalıda daha amansız qətllər törətdilər. Şübhəsiz ki, bu faciə zamanı törədilən vəhşilikləri sözlə təsvir etmək mümkün deyil.

Ermənilərin Xocalıda törətdikləri soyqırımı, dinc əhalinin, qocaların, qadınların, uşaqların xüsusi qəddarlıqla öldürülməsi Azərbaycan xalqına qarşı son dərəcə düşünülmüş psixoloji bir zərbədir. Əsas məqsəd bütün Azərbaycan xalqında kollektiv sarsıntı yarada bilmək, əhalidə ermənilərin "qorxu, təhlükə mənbəyi" imicini formalaşdırmaq idi. Dinc əhalinin xüsusi qəddarlıqla qətlə yetirilmələrində bir sıra məqsədlər də güdülmüşdür: azərbaycanlılar arasında təşvişin yaradılması, ermənilərin hücumlarına müqavimətin zəifləməsi, cəmiyyətin iflic vəziyyətinə salınması, mümkün qədər çox ərazilərin işğal edilməsi.

Əldə olan faktlar onu deməyə imkan verir ki, Azərbaycan tarixinin ən ağrılı və acılı səhifələrindən olan Qaradağlı və Xocalı faciələri mübahisəsiz bir soyqırımıdır. Günümüzdə hər hansı bir faciənin soyqırımı olaraq tərif edilməsi üçün saylara diqqət çəkilməkdə və əgər yüz minlərlə insan məhv edilərsə, bunun soyqırımı olaraq xarakterizə oluna biləcəyi düşünülməkdədir. Bir gecədə 613 insanın qətl edildiyi Xocalı faciəsi bütün dünyada soyqırımı kimi tanınmalıdır. Çünki 9 dekabr 1948-ci ildə BMT tərəfindən qəbul edilən *"Soyqırımı Cinayətinin Qarşısının Alınması və Cəzalandırılması Sözləşməsi"*ndəki tərifdə müəyyənedici meyar say deyil, millət, din, soy, ya da irq kimi xüsusiyyətlər üzərində qurulan bir qrupun sistematik və məqsədli olaraq tamamilə ya da qismən məhv edilməsi planıdır. Ermənilərin Xocalıda törətdikləri cinayətlər BMT tərəfindən qəbul edilən bu sözləşmənin ikinci maddəsi ilə üst-üstə düşür. Bu maddənin bəndlərində göstərilir:

*1. Əlaqədar qrup üzvlərinin (milli, etnik və dini olaraq) öldürülməsi*

*2. Əlaqədar qrup üzvlərinin ruhi və fiziki səhhətlərinə zərər verilməsi*

*3. Əlaqədar qrup üzvlərinin fiziki varlıqlarının ortadan qaldırılması.*

Məhz bu baxımdan ermənilərin Xocalıda törətdikləri vəhşiliklər insanların (qrupun) planlı və sistematik olaraq məhv edilməsinə istiqamətlənmiş cinayətlərin təzahürləridir. Ermənistan 1993-cü ildən BMT-nin *"Soyqırımı Cinayətinin Qarşısının Alınması və Cəzalandırılması Sözləşməsi"*ni imzaladığı üçün bu nizamnamə qarşısında məsuliyyət daşıyır. BMT-nin soyqırımı sözləşməsinin 3-cü və 4-cü maddələrinə uyğun olaraq, soyqırımına rəvac verən hərəkətlərdən birini belə həyata keçirən, gerçəkləşdirilməsi üçün razılığa gələn, ictimaiyyətə istiqamətlənmiş bu cür hərəkət və fəaliyyətləri qızışdıran, təşviq edən, eyni zamanda bu fəaliyyətləri əvvəlcədən planlaşdıran və hədəfləyən, istər icraçı, istərsə də rəsmi və ya qeyri-rəsmi şəxs olaraq cinayətlərdə iştirakı təsdiqlənən hər kəsin cəzalandırılması vacibdir.

Xocalı soyqırımının dünya ictimaiyyətinə çatdırılması istiqamətində Azərbaycanda son illərdə çox işlər görülüb. Lakin səylər daha da artırılmalıdır. Ermənilərin "quzu cildinə girmiş canavar" obrazını ifşa etmək üçün üzərimizə böyük məsuliyyət düşür. Azərbaycanın erməni saxtakarlığı və cinayətləri ilə bağlı qarşılaşdığı problemlər açıqca ortaya qoymuşdur ki, yeni strategiyaların müəyyən edilməsi və gücləndirilməsi qaçılmazdır. Bu mübarizədə uğurlar əldə etməyin başlıca yolu isə psixoloji müharibəyə daha yaxşı hazırlaşmaq və bunu qarşı tərəfə qəbul etdirə bilməkdir.

**Emin ŞIXƏLİYEV**
***tarix üzrə fəlsəfə doktoru, dosent***

## Xocalı faciəsinə həsr olunmuş şeir və inşa-yazı müsabiqələri keçirilib

Naxçıvan şəhərindəki 12 nömrəli tam orta məktəbdə 26 fevral – Xocalı faciəsinin 23-cü ildönümünün, Xocalı şəhidlərinin xatirəsinin yad edilməsi və yeniyetmələrə vətənpərvərlik hislərinin aşılanması məqsədilə Naxçıvan şəhər ümumtəhsil məktəblərinin şagirdləri arasında şeir müsabiqəsi keçirilib. Müsabiqədən öncə Xocalı şəhidlərinin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbiri giriş sözü ilə Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin rəisi Xəyal Qurbanov açaraq Xocalı faciəsinin acı həqiqətlərindən danışıb. Təhsil Şöbəsinin əməkdaşı Qızıllı Əliyeva 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni daşnaklarının terrorçu qrupunun Xocalı şəhərində törətdiyi amansız faciədə şəhid olmuş, itkin düşmüş, zərərəkmiş sakinlər haqqında faktlarla məlumat verib.

Naxçıvan Şəhər Gənclər və İdman İdarəsi ilə Təhsil Şöbəsinin birgə təşkil etdiyi müsabiqədə 17 tam orta məktəbdən 17 şagirdin şeiri dinlənilib. Münsiflər heyətinin qərarına əsasən, 3 nömrəli tam orta məktəbin 10-cu sinif şagirdi Qasım Səfərov birinci, 14 nömrəli tam orta məktəbin 8-ci sinif şagirdi Anar Mikayılov ikinci, 16 nömrəli tam orta məktəbin 6-cı sinif şagirdi Səma Cəlilova isə üçüncü yerlərə layiq görülüblər. Qaliblərə Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin diplomları təqdim olunub.

* * *

Yeni Azərbaycan Partiyası Kəngərli Rayon Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyi, Kəngərli Rayon Gənclər və İdman İdarəsi və Təhsil Şöbəsinin birgə təşkilatçılığı ilə rayonun ümumtəhsil məktəblərinin şagirdləri arasında Xocalı faciəsinin 23-cü ildönümünə həsr edilmiş inşa-yazı müsabiqəsi keçirilib. 12 tam orta məktəbdən 26 inşa-yazı işinin təqdim olunduğu müsabiqənin qalibi adını Yurdçu kənd tam orta məktəbinin 11-ci sinif şagirdi Nigar Rüstəmova qazanıb. Qarabağlar kənd 2 nömrəli tam orta məktəbin 11-ci sinif şagirdi İnci Abdullayeva ikinci, Yeni Kərki kənd tam orta məktəbinin 10-cu sinif şagirdi İmran Hüseynov isə üçüncü olublar.

* * *

Yeni Azərbaycan Partiyası Sədərək Rayon Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyi, Sədərək Rayon Gənclər və İdman İdarəsi və Təhsil Şöbəsinin birgə təşkilatçılığı ilə rayon ümumtəhsil məktəblərinin şagirdləri arasında Xocalı faciəsinin 23-cü ildönümünə həsr edilmiş inşa-yazı müsabiqəsi keçirilib. Müsabiqəyə 4 tam orta məktəbdən 21 inşa-yazı işi təqdim edilib. Münsiflər heyətinin qərarına əsasən, müsabiqədə birinci yerə Sədərək kənd 1 nömrəli tam orta məktəbin 10-cu sinif şagirdi İnci Hüseynova, ikinci yerə Sədərək kənd 2 nömrəli tam orta məktəbin 11-ci sinif şagirdi Gözəl Əliyeva, üçüncü yerə isə Heydərabad qəsəbə tam orta məktəbinin 11-ci sinif şagirdi Xəzangül Məmmədova layiq görülüblər.

**✍ Ceyhun MƏMMƏDOV**

***Naxçıvan şəhərindəki "Xan Sarayı" Dövlət Tarix-Memarlıq Muzeyində "Xocalı soyqırımı XX yüzilliyin ən ağır faciəsidir" mövzusunda elmi-nəzəri konfrans keçirilib.***

## Dünyanın ən dəhşətli faciəsi

Tədbiri muzeyin direktoru, Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi Nəzakət Əsədova açaraq qeyd edib ki, erməni quldurlarının xalqımıza qarşı törətdikləri, dünyanın ən dəhşətli qətliamlarından olan Xocalı soyqırımından 23 il keçir. 1992-ci il fevralın 25-dən 26-na keçən o qarlı-çovğunlu gecədə qədim tarixi olan Xocalı bir gecənin içində viran edildi.

Azərbaycan Vətən Müharibəsi Veteranları və Şəhid Ailələri Naxçıvan Muxtar Respublikası Təşkilatının Naxçıvan Şəhər Şöbəsinin sədri Zahid Cəfərov "Xocalı soyqırımı XX yüzilliyin ən ağır faciəsi kimi" mövzusunda çıxış edərək bildirib ki, bu faciəli gecədə dinc əhalidən 613 nəfər, o cümlədən 63 uşaq, 106 qadın, 70 qoca xüsusi amansızlıqla qətl edilib, 76-sı uşaq olmaqla, 487 nəfərə ağır bədən xəsarətləri yetirilib, 1275 sakin əsir, 150 nəfər isə itkin düşüb.

AMEA Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun böyük elmi işçisi, tarix üzrə fəlsəfə doktoru Musa Quliyev "Xocalı soyqırımı insanlıq əleyhinə törədilmiş bəşəri cinayətdir", "Naxçıvan" Universitetinin İdarəetmə fakültəsinin dekanı, tarix üzrə fəlsəfə doktoru, dosent Elbrus İsayev "Xocalı soyqırımı: beynəlxalq terrorizmin tərkib hissəsidir", Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin mətbuat və ictimaiyyətlə əlaqələr üzrə baş məsləhətçisi Əli Rzayev "Naxçıvan əhalisinin qətiyyəti və erməni vandalizminin süqutu" mövzularında çıxışlar ediblər.

Çıxışlarda qeyd olunub ki, məhz ulu öndər Heydər Əliyevin ölkəmizə rəhbərliyə qayıdışından sonra Xocalı faciəsi özünün əsl siyasi-hüquqi qiymətini alıb. 1994-cü il fevralın 24-də ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə Milli Məclisdə Xocalı faciəsinə hüquqi-siyasi qiymət verilib. Çıxışlarda bu gün də ölkəmizdə Xocalı soyqırımının tanıdılması istiqamətində böyük işlərin görüldüyü vurğulanıb, faciəyə beynəlxalq hüquqi-siyasi qiymətin verilməsi üçün kampaniyanın davam etdirildiyi bildirilib.

Sonda Xocalı faciəsinə həsr olunmuş sərgiyə baxış olub.

**Əli RZAYEV**

## "Qan yaddaşımız Xocalı" adlı rəsm sərgisinin açılışı olub





Fevralın 19-da Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin Bəhruz Kəngərli adına Sərgi Salonunda Xocalı soyqırımına həsr edilmiş "Qan yaddaşımız Xocalı" adlı rəsm sərgisinin açılışı olub.

Sərgidə əksəriyyəti gənclərdən ibarət olan 27 rəssamın 50-dək əsəri nümayiş etdirilir.

Sərginin açılış mərasimində əvvəlcə Xocalı faciəsinin qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad edildi.

Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin sədri, Azərbaycan Respublikasının Əməkdar rəssamı Ülviyyə Həmzəyeva çıxış edərək bildirdi ki, Azərbaycan xalqı, bütün mütərəqqi bəşəriyyət bu amansız qətliamı heç zaman unutmayacaq. Bu faciənin bədii əsərlərdə, kinofilmlərdə, musiqi və rəsm əsərlərində gələcək nəsillərə, eyni zamanda dünya ictimaiyyətinə çatdırılması istiqamətində ardıcıl işlər görülür.

Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin sədri qeyd etdi ki, Xocalı soyqırımı törədildiyi zaman hadisələrin şahidi olan xarici jurnalistlər dünya mətbuatında faciənin miqyası barədə tükürpədici faktlarla çıxış ediblər. Fransadan olan jurnalist Jan-İv Yunet, digər nüfuzlu Avropa ölkəsinin – İngiltərənin "Frant layn nyus" telekompaniyasının jurnalisti Rori Patriks, Rusiyanın nüfuzlu "İzvestiya" qəzetinin müxbiri V.Belıx və digərlərinin qələmə aldıqları məqalələrdə dəhşətli faciənin təfərrüatları oxuculara çatdırılıb.

"Xocalıda törədilən faciəni ermənilərin özləri də etiraf edirlər. Həmin şəxslərdən biri də insanlığa sığmayan vəhşiliyi görən və sonra Beyruta qaçan erməni jurnalist Davud Xeyriyan kitabında dəhşətli faciəni qələmə alıb", – deyən Ülviyyə Həmzəyeva Azərbaycan barədə həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasının əhəmiyyətindən ətraflı söhbət açdı.

Daha sonra sərgiyə baxış oldu.

Naxçıvan Dövlət Universitetinin, "Naxçıvan" Universitetinin, Naxçıvan Müəllimlər İnstitutunun, Naxçıvan Tibb Kollecinin tələbələri, Heydər Əliyev adına Hərbi Liseyin kursantları, Naxçıvan Dövlət Tarix və Dövlət Xalça muzeylərinin əməkdaşları "Şəhid", "Şəhidlər anası", "Faciə", "Xocalı soyqırımı" və digər rəsm əsərlərinə maraqla baxdılar.

Sərgi fevralın 28-dək davam edəcək.

**Xəbərlər şöbəsi**

***İtmişdir***

Naxçıvan şəhəri, N.Naxçıvani küçəsi 2, ev 9-da yaşamış Əliyeva Sara Cəfər qızının adına olan 1052 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.


**ŞƏRQ qapısı**

**Baş redaktor:**
**TURAL SƏFƏROV**

***Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.***

*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
*E-mail: serqqapisi@nakhchivan.az*

**Qeydiyyat №: 575**

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

***Nömrəyə məsul: Əli Cabbarov***

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Ədəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

**Tiraj: 4020. Sifariş № 159**